# Mədəniyyət, ədəbiyyat və digər körpülər

*Azərbaycan Respublikasının Serbiyadakı səfiri Eldar Həsənovun "Knijevne novine" qəzetinə müsahibəsi*



**- 2010-cu ildə Azərbaycan Respublikasının Serbiya Respublikasında səfirliyinin açılması Serbiya ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın dərinləşməsinə doğru atılan önəmli addımdır. Bu təsisat bizim xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edən körpüdür. Sizin baxış bucağınızdan bu münasibətlər necə görünür?**

- Məmnuniyyətlə bildirirəm ki, dövlət başçılarının, xarici işlər, iqtisadiyyat nazirlərinin, parlament üzvlərinin və digər yüksək çinli məmurların birgə rəsmi görüşlərindən sonra Azərbaycan və Serbiya arasındakı münasibətlər dinamik və nikbin xətlə inkişaf etməkdədir...

**- Azərbaycan Mədəniyyət Mərkəzi serb xalqının sizin zəngin mədəni irsinizlə tanış olmağı üçün əhəmiyyətli proqramlar hazırlayır.**

- Bəli, siz haqlısınız, Belqradda fəaliyyətə başladığı gündən indiyə kimi Azərbaycan Mədəniyyət Mərkəzi müxtəlif səviyyələrdə uğurlu əməkdaşlığını davam etdirir. Azərbaycan Mədəniyyət Mərkəzi Belqrad Mədəniyyət Mərkəzi ilə sıx əməkdaşlıq edir və hətta birgə layihələr həyata keçirir. Ziyalıların nümayəndələri ilə, elm, mədəniyyət, incəsənət, ədəbiyyat adamları ilə, tələbəgənclərlə ikitərəfli görüşlər təbii ki, bizi çox sevindirir. Diplomatiyanın mühüm məsələlərindən biri iki xalqı biri-birinə doğmalaşdırmaq üçün onların tarixi, mədəni dəyərləri, adət-ənənələri barədə bilgilər verməkdir. Bu baxımdan o da maraqlıdır ki, Azərbaycan və serb xalqlarını oxşar tarix və indiki tale birləşdirir. Qeyd etmək istəyirəm ki, 2014-cü il oktyabrın 1-də Belqradda Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdindəki kitabxananın təntənəli açılışı oldu. Həmin tədbirdəki konsert proqramında serb musiqiçilərinin ifasında Azərbaycan musiqiçilərinin əsərləri səsləndi, həmçinin Azərbaycanda olmuş serb sənətşünası Konstantin Novakoviçin sərgisi təşkil olundu. Eyni zamanda, 1-6 oktyabr 2014-cü ildə Bakı Xoreoqrafiya Akademiyasının nəzdindəki məktəbin şagirdləri "Avropanın sevinci" adlı uşaq festivalında iştirak etmək üçün Belqrada gəldilər. Bu da sevindiricidir ki, festival iştirakçıları olan uşaqlar Yeni Belqradın "Laza Kostiç" məktəbindən olan yaşıdlarının yanında qaldılar.

**- Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə səfirlik müəyyən mədəni tədbirlərin keçirilməsinə dəstək verir ki, bu da sizin ölkənin mənəvi dəyərlərinin bizim xalq tərəfindən daha geniş planda tanınmasına şərait yaradır. Serbiya Yazıçılar İttifaqının Direktorlar şurası ilə əməkdaşlıq barədə protokol imzalamısınız.**

- Ötən ilin sentyabrında Serbiya Yazıçılar İttifaqının sədri cənab Radomir Andriçin dəvəti ilə Azərbaycan Yazıçılar Birliyinin sədri, görkəmli yazıçı cənab Anar yazıçıların 50-ci Belqrad Beynəlxalq qurultayında iştirak etdi. Məmnunluqla bildirirəm ki, elə həmin vaxtlarda iki ölkənin Yazıçılar Birliyi arasında əməkdaşlıq barədə protokol imzalandı. Ötən ilin iyun ayında cənab Radomir Andriç Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi münasibətilə Bakıya dəvət aldı və həmin təntənəli tədbirdə iştirak etdi. Sentyabr ayında isə Azərbaycan Yazıçılar Birliyinin nümayəndə heyəti Serbiyada yazıçıların 51-ci Belqrad qurultayının iştirakçısı oldu. Mən inanıram ki, bu mədəni körpü dövlətlərimiz arasındakı münasibətlərin inkişafına rəvac verir, serb və Azərbaycan xalqlarının daha da yaxınlaşmasına şərait yaradır. Bundan başqa 30 sentyabrdan 2 oktyabra kimi Azərbaycanın xalq yazıçısı İlyas Əfəndiyevin ləyaqətli varisi, Azərbaycan Respublikası Baş nazirinin müavini, görkəmli yazıçı cənab Elçin Əfəndiyev də Serbiyada olmuşdur. O, Serbiyaya Kariç Fondunun mədəniyyət və incəsənət nominasiyası üzrə "Kariç qardaşları" mükafatını qəbul etməyə gəlmişdi.

**- Bizə məlumdur ki, Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü və səfirliyin dəstəyilə tanınmış Azərbaycan musiqişünası Zemfira Səfərovanın görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli haqqında kitabı, həmçinin məşhur Azərbaycan şairi Rəsul Rzanın "Rənglər" adlı kitabı serb dilində işıq üzü görmüşdür. Serb-Azərbaycan sözlüyü və danışıq kitabçası hazırlanaraq nəşr edilmişdir. Bu qısa müddət ərzində sizin səfirliyin vasitəçiliyilə Azərbaycan Serbiyanın çağdaş həyatında aktiv və məxsusi yer tutub.**

- Böyük sevinclə bildirmək istəyirəm ki, biz 10-dan artıq Azərbaycan müəllifinin kitablarını serb dilinə, eyni zamanda, Nobel mükafatı laureatı İvo Andriç, Milorad Raviç kimi görkəmli serb yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etdirmişik və edirik. Azərbaycanın Serbiyadakı səfirliyinin xəttii lə "Məşhur adamların həyatı" seriyasından "Heydər Əliyev" kitabı serb dilinə tərcümə olunub. Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə həsr edilmişdir, hansı ki, Taşmaydan parkında Milorad Paviçlə yanaşı onun abidəsi qoyulmuş və bu abidələr bizim xalqların dostluq rəmzinə çevrilmişdir. Azərbaycan Respublikası qürur duyduğu bu parkın estetik bərpasına və yeniləşməsinə dəstək vermişdir. Burada həmişə çoxlu gənclər, uşaqlar, gözəlliyi sevənlər… istirahət edirlər ki, bu da bizi sevindirir.

Mən əlavə olaraq Elçin Əfəndiyevin "Ölüm hökmü", Baxış Mehdiyevin İkinci Dünya müharibəsində azərbaycanlı əsgərlərdən formalaşdırılmış 223-cü Belqrad diviziyası haqqındakı kitablarını da xatırlatmaq istəyirəm. Bu baxımdan bir məqamı xüsusi nəzərə çatdırmaq istəyirəm ki, 1000 nəfərdən artıq azərbaycanlı əsgər Belqradın və bütün Yuqoslaviyanın azadlığı uğrunda döyüşmüş və həlak olmuşdur. Yeri gəlmişkən deyim ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəzdindəki "Salnamə" sənədli filmlər studiyası bu kitabın materialları əsasında sözügedən diviziyanın döyüş yolu barədə film çəkmiş və həmin film Serbiyada ilk dəfə 2011-ci ildə nümayiş etdirilmişdir.

**- Teatr və musiqi sahəsində bizim ölkəyə daha nələri təklif edərdiniz.**

- Tezliklə görkəmli Azərbaycan yazıçı-dramaturqu Cəlil Məmmədquluzadənin serb dilinə tərcümə olunmuş "Seçilmiş əsərləri"nin təqdimat mərasimi keçiriləcəkdir. Eyni zamanda, Novo-Pazarski şəhər teatrında yazıçının "Kamança" (Azərbaycan xalqının milli musiqi aləti) pyesinin premyerası göstəriləcəkdir. O sıradan vurğulamaq istəyirəm ki, 2012-ci ilin mart ayında Belqradın "Slaviya" teatrında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı aktyorlarının iştirakı ilə Beynəlxalq teatr festivalı çərçivəsində Hüseynbala Mirələmovun "Tövbə" tamaşası göstərilmişdir. Bu il dünya şöhrətli müğənni və bəstəkar Əzizə Mustafazadənin Novi Sad şəhərində, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Rasim Babayevin Belqradda uğurlu konsertləri olmuşdur.

**- Bunlar həqiqətən xoş təəssürat yaradır. 2013-cü ilin fevralında Serbiya Prezidenti cənab Tomislav Nikoliç Azərbaycanda olarkən bizim ölkələr arasında daha möhkəm, daha məzmunlu əməkdaşlıq barədə danışıqlar olub.**

- Serbiya Respublikasının Prezidenti cənab Tomislav Nikoliçin 7-9 fevral 2013-cü ildə Azərbaycana səfəri zamanı "Dostluq əlaqələri və strateji partnyorluq barədə deklorasiya" imzalanıb. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlər müxtəlif sahələrdə özünün intensiv inkişafını tapıb və hökumətlər arasında imzalanan sənədlər bu əməkdaşlığın real hüquqi bazasının yaranmasına xidmət edir. Serbiya Respublikasının Prezidenti cənab Tomislav Nikoliçin Azərbaycana rəsmi səfəri zamanı Bakıda dünya şöhrətli serb alimi Nikola Teslenin abidəsi açılıb.

**- Serbiya əhalisinə sizin ölkənin yaxınlığını hansı baxımdan təqdim etmək olar?**

- Hər il Azərbaycan hökuməti Belqrada kompakt məskunlaşmış ana və uşaqlara, o cümlədən, Voevodin qaçqınlarına humanitar yardım göstərir. Azərbaycan xalqı tarixən humanist xalqdır. Humanizm ənənələrinə sadiq qalan ölkəmiz dünyanın bir çox ölkələrinə öz yardımını əsirgəmir. Bu siyasət çərçivəsində bizim Serbiyadakı səfirlik əhalinin müxtəlif təbəqələrinə - əlillərə, qaçqınlara, valideyn qayğısından məhrum uşaqlara və kimsəsiz qocalara humanitar yardım göstərir. Biz Voevodin qaçqınlarına yardım göstərən yeganə səfirliyik. Onların xahişilə biz Novi Saddakı Müqəddəs Beşlik kilsəsinin tikintisini başa çatdırdıq. Belqradda yanğına məruz qalmış Bayraqlı məscidin bərpa işlərini də tamamladıq. Bütün bunlar göstərir ki, bizim üçün insan anlayışı var, milli və dini ayrıseçkilik yoxdur. Serbiyada 19 may 2014-cü ildə baş vermiş güclü daşqınlardan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ölkəmiz tərəfindən ölkənizə humanitar yardım göstərildi. Eyni zamanda, 31 iyul 2014-cü ildə Azərbaycan hökuməti adından Azərbaycan səfirliyi Loznitsa şəhərində yaşayan qaçqınlara və daşqınlardan ziyan çəkən şəxslərə humanitar yardım göstərdi.

**- Kosovo və Metoxiya hadisələrinə görə, Yuqoslaviyanın bəzi keçmiş respublikaları ilə müharibəyə görə dünya mətbuatında adı hallandırılan serb xalqına necə baxırsınız? Yaxın keçmişdə sizin torpaqlarınızın da bir qismi işğal olunmuş, xalqınız əziyyət çəkmişdir. Sizin mövqeyinizi bizim ölkənin ərazi bütövlüyünü dəstəkləməkdə gördük, müstəqilliyini elan edən Kosovo Respublikasını tanımadınız. Hansı şəxsi və tarixi təcrübə sizi bu mövqedə dayanmağa vadar etdi? Bu faciəvi olaylarda xalqınıza məxsus mədəniyyət abidələrinə də ziyan vuruldumu?**

- Bizim mövqeyimiz hər şeydən öncə dostluğa və beynəlxalq hüququn norma və prinsiplərinə hörmətə əsaslanır. Ərazi bütövlüyünüzün, suverenliyinizin pozulmasını və sizə təcavüzün necə göründüyünü yaxşı bilirik. Kosova və Metoxiya Serbiyanın ayrılmaz hissəsidir.

Azərbaycan müsəlman şərqində ilk ölkədir ki, 1918-ci ildə demokratik respublikasını yaradıb. Təəssüf ki, Azərbaycan Demokratik Respublikasının ömrü cəmi iki il olub. 1920-ci ildə Qızıl ordu Azərbaycanı işğal etmiş, hakimiyyəti bolşeviklər ələ keçirərək Azərbaycan ərazisində Sovet hökumətini qurmuşlar. Lakin müstəqillik və demokratiya ideyaları uğrunda mübarizə Azərbaycan xalqının başlıca tarixi missiyası olub. Nəhayət, Sovetlər Birliyi dağılandan sonra milli azadlıq mübarizəsinə qalxan Azərbaycan 1991-ci ildə öz müstəqilliyini yenidən elan etmişdir.

*Hər halda, xoşbəxtlikdən müharibələr bitir, həyat isə yeni enerji və qüvvə ilə davam edir. Bu gün Azərbaycan Respublikası nikbin xətlə inkişaf edir və o, Cənubi Qafqaz regionunda ən qüdrətli dövlət olaraq Cənub-Qərbi Asiya ilə Şərqi Avropanın qovuşağında yerləşən Avrasiya ölkəsidir. Azərbaycan ərazisində insan məskunluğunun izləri başlanğıcını daş dövründən götürür...*

*Azərbaycan dilində musiqi bəstələyən ən məşhur bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Asəf Zeynallı və Azərbaycan himninin müəllifi - 2011-ci ildə Novi Sad sahilində ucalan abidəsi dostluq və həmrəylik rəmzinə çevrilmiş Üzeyir Hacıbəylidir.*

*Müasir görkəmli yazıçılardan Anar, Bəxtiyar Vahabzadə, Afaq Məsud, Kamal Abdulla, Çingiz Abdullayev və başqalarının adlarını çəkmək olar.*

*Zülfəli Əliyevin Belqrad və Buxarestin azad olunmasında xüsusi rolu olmuş 223-cü Azərbaycan diviziyasına həsr etdiyi "Belqraddan məktub" filmi bizim həmrəylik ənənəmizin dərin qatlarından xəbər verir.*

*Azərbaycanın səfiri Novi Sad və Belqrad universitetlərində mühazirə oxuyur. O, hörmətli və nüfuzlu şəxsiyyət kimi bizim ölkənin mədəni həyatında fəal iştirak edir, Azərbaycan-Serbiya münasibətlərinə yeni töhfələr verir, hər iki tərəfin bu əlaqələrdən faydalanmağı üçün məxsusi maarifçilik aparır. Bu, bütün zamanlarda yaşayan və ali insanlıq duyğularını təsdiq edən mədəniyyət sferasında daha çox özünü göstərir. Şübhəsiz ki, onu mədəniyyət adamı adlandırırlar.*

**Draqana LİLİÇ**
*"Knijevne novine" N-1230-31,*
*Belqrad, oktyabr-noyabr 2014*

*Rus dilindən tərcümə edəni:* **Adil CƏMİL**